UOT 316.624

***Şəbnəm Şükür qızı Əlizadə***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*

# ALKOQOL İSTİFADƏSİ ZAMANI YENİYETMƏLƏRİN DAVRANIŞLARINDA YARANAN SOSİAL-PSİXOLOJİ DƏYİŞİKLİKLƏR

***Шабнам Шюкюр гызы Ализаде***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ИЗМЕНЕНИЯ, ВОЗНИКАЮЩИЕ В ПОВЕДЕНИИ ПОДРОСТКОВ ПРИ УПОТРЕБЛЕНИИ АЛКОГОЛЯ

***Shabnam Shukur Alizade***
*doctoral student in the Ph.D. program*
*Baku State University*

# SOCIO-PSYCHOLOGICAL CHANGES IN THE BEHAVIORS OF ADOLESCENTS WHEN USING ALCOHOL

**Xülasə.** Müasir dövrdə yeniyetmələr arasında ən çox özünü göstərən problem alkoqol istifadəsidir. Burada əsas səbəblər sosial-psixoloji faktorla əlaqəlidir. Yeniyetmələrin yaxın ətrafı və mənsub olduqları qruplar bu vəziyyəti daha da kəskinləşdirə bilər. Bu vəziyyətdə aqressiv və depreыsiv davranışlar daha çox yeniyetmələrdə görülür. Nəticə etibarı ilə bu dəyişikliklər bütün həyat sahələrinə mənfi təsir göstərir.
***Açar sözlər:*** *yeniyetmə, alkoqol, davranış, alkoqol istifadəsinin zərərləri, sosial-psixoloji faktorlar.*

**Резюме.** Употребление подростками алкоголя является одной из часто встречающихся в современный период проблем. Его основные причины кроются в социально-психологических факторах. Близкий круг общения, группы, в которых они состоят, могут еще больше усилить данное обстоятельство. При этом в поведениях подростков чаще наблюдаются случаи агрессивности, депрессивности. По этой причине, данные возникающие изменения оказывают негативное воздействие на все сферы их жизни.
***Ключевые слова:*** *подросток, алкоголь, поведение, вред от употребления алкоголя, социально-психологические факторы*

**Summary.** Alcohol use among adolescents is one of the most common problems in modern times. The main reasons for this are socio-psychological factors. Adolescents' immediate environment and the groups they belong to can exacerbate this situation. In this case, aggressive and depressive behaviors are more common in adolescents. Consequently, these changes have a negative impact on their entire sphere of life.
***Keywords**: adolescent, alchohol, behavior, harms of alcohol use, socio-psychological factors*

Yeniyetməlik dövrü fərdin cəmiyyətdə nüfuz qazanması üçün ən əhəmiyyətli bir mərhələdir. Artıq yeniyetməlik dövründə baş verən fizioloji və psixoloji dəyişikliklər onların həyat tsiklinə birbaşa təsir göstərir. Sosial mühitə adaptasiya, insanlarla olan ünsiyyət üslubları onların qoşulduğu qrupla görə dəyişir. Bunu aydın görmək üçün yeniyetmə oğlan və qız qruplarını ayrılıqda nəzərdən keçirmək lazımdır. Yeniyetmə qızlarda oğlanlara nisbətən sadalanan proseslər daha sürətli baş verir. Sosial mövqe məsələsində isə oğlanlar daha çox buna önəm verir, qızlar isə qrupa adaptasiya olunmağı daha üstün tuturlar. Bu kimi vəziyyətlərdə onlarda

depressiya, həyəcan, aqressivlik və asılı tip davranışlar özünü göstərməyə başlayır. Müxtəlif qruplara qoşulmaları nəticəsində orda olan neqativ davranış üslublarını təqlid etməyə başlaya və qrup təsirinə məruz qala bilirlər. Bu zaman onlarda ən çox yayılmış vəziyyət alkoqol istifadəsidir.

Alkoqol istifadəsi yeniyetmələrdə riskli davranışları artırmaqdadır. Bu hal müxtəlif yaş dövrlərində özünü göstərə bilər və xüsusilə də yeniyetməlik dövrü daha əsas dövr hesab olunur. Aparılmış araşdırmalara görə, alkoqol istifadəsinin 1%-i 12 yaş və daha kiçik yaşlarda özünü göstərir.

Yeniyetməlik dövrü artıq uşaqlarda yetkinliyə keçid mərhələsi kimi qiymətləndirilir. Psixi və sosial inkişafın bu dövrdə sürətli getdiyi nəzər alınaraq, yeniyetmələr tərəfindən alkoqol istifadəsinin onların inkişafına neqativ təsiri daha da qabarıq şəkildə özünü göstərə bilər. Təhsil sahəsində geriləmələr, hüquqazidd davranışların formalaşması, riskli cinsi davranışlar və s. kimi halların ortaya çıxmasına səbəb ola bilər.

Niyə yeniyetmələr alkoqol maddə qəbul edirlər? Bunun bir sıra səbəbləri vardır. Burada əyləncə, ümumi olaraq içkiyə maraq etdikləri üçün və bəziləri isə düşdükləri vəziyyətdən çıxış yolu tapmaq üçün alkoqoldan istifadə edir. Kiçik yaşlıların alkoqol maddə qəbul etməsinin nəticələri aşağıdakılardır:

-Məktəbdə uğursuz nəticələr;

-Sosial əlaqələrdə problemlər;

-Hüquqi problemlər, içki içdikləri zaman törədilən hüquqazidd davranışlar;

- Baş ağrıları və digər fiziki halsızlıqlar;

- İstəksiz, planlaşdırılmamış cinsi aktivlik;

-Yaddaş problemləri;

-İntihara meyilli davranışlar;

-Bəzi hallarda alkoqol zəhərlənmələrindən ölüm faktı.

Yeniyetməlik dövrü digər yaş qruplarına nisbətən daha çox riskli davranışlara meyilli mərhələdir. Nümunə üçün, kriminal davranışlar, alkoqol, narkotik maddələrin, siqaretin, aqressiv davranışlar daha çox nümayiş etdirmək, yollarda təhlükəli davranış bu yaş dövründə daha çox müşahidə edilir (2, s. 107).

Alkoqolizm ümumilikdə yaranması nəzarət edilməyən alkoqol ehtiyacı ilə əlaqəlidir. Alkoqolizm zamanı şəxsin digər ehtiyacları arxa plana keçir, əsas məqsəd alkoqol qəbul edilməsi ilə əlaqəli olur. Yeniyetmələrdə alkoqolla bağlı əsas problemləri onların fiziki inkişaflarında, sosial münasibətlərində yaranır.

Yeniyetmələrdə yaranan alkoqolizm müxtəlif səbəbləri vardır, burada əsas rolu onların yaşıdlarının təsirinə məruz qalmasıdır. Ətrafında alkoqoldan istifadə edənlərin olması artıq yeniyetmənin də bundan istifadə etməsi ehtimalını artırır. Alkoqol insan bədənin hər bir hissəsinə təsir edən depressantdır. Qəbul edilən içki insanın qanı vasitəsilə daxili orqanlarına, beyinə, qaraciyərə, böyrəklərə, mədəyə, əzələlərə təsir edir. Alkoqol bədən tərəfindən çox tez mənimsənilir, təqribi 5-10 dəqiqə ərzində effektlərini müşahidə etmək olar və bir neçə saat ərzində öz təsirini saxlayır.

İlkin olaraq mərkəzi sinir sisteminə təsir edir və bu zaman içkini qəbul edənlərin özlərini rahat hiss etməsinə səbəb olur. Bəzi insanlarda alkoqol qəbulundan sonra müəyyən davranış pozuntuları müşahidə edilir. Onlarda aqressiv və zorakı davranışlar artmağa başlayır. Yeniyetmələr içkinin təsirini daha kəskin hiss edə bilirlər. Bunun səbəbi hələ inkişaf etməkdə olan bədən sistemi və onların daha əvvəl alkoqoldan istifadə etməmələridir. Hər il yüzlərlə yeniyetmələr alkoqolla qəbulu ilə əlaqəli xəstəxanalara yerləşdirilir. Yaralanmaların və ölümlə baş verən qəzaların əsas səbəbi, içkili vəziyyətdə olmalarıdır.

Yeniyetmələr tərəfindən qəbul edilən alkoqolun müxtəlif səbəbləri vardır. Bunlar içərisində sosial faktorlar mühüm rol oynayır. Əgər yaxın yoldaşlarının içki istifadə etdiyini görürsə, bu zaman onunda bu cür davranışa qarşı qoyması çətinləşir.

***Alkoqolun orqanizmə təsirləri:*** Alkoqol yeniyetmələrin ilk növbədə beyinlərinin inkişafına neqativ təsir göstərir. Yeniyetməlik dövründə beynin prefrontal korteks və hippokampus hissəsi inkişaf etməkdədir. Xroniki alkoqolizm və adi içki qəbulu zamanı, yeniyetmələr artıq 5 dəfədən artıq içki qəbul etdiklərində onların prefrontal korteksində hippokampusun inkişafına neqativ təsirlərini müşahidə etmək olur. Bu zaman beyində ya uzunmüddətli ya da sağalmayan zədələr formalaşdıra bilər. Qərar qəbul etmə, mühakimə etmə, öyrənmə prosesinə, yaddaşa daha çox təsirlər müşahidə edilmişdir. AMA (America Medical Association) tərəfin-

dən edilən araşdırma nəticəsində müəyyən edilmişdir ki, alkoqol qəbul edən 14-21 yaşlı insanlarda hippokampus hissəsi içki içməyənlərə nisbətən 10% daha kiçikdir. Bu zədə yaddaş və öyrənmə prosesinə qalıcı xəsarətlər yetirə bilər.

Alkoqolun aşırı istifadəsi zamanı aşağıdakı hallar özünü göstərir:

-Aqressiv davranışlar;

-Diqqəti cəmləşdirməkdə çətinliklər;

-Yaddaş problemləri;

-Əhval-ruhiyyənin tez-tez dəyişikliyi;

-Ətrafdakı insanlardan özünü təcrid etmə və s.

Alkoqolizm ümumilikdə, ilk dəfə 1785-ci ildə amerikalı həkim Benjamin Rush və ingilis həkim Thomas Trotter tərəfindən müəyyən edilmişdir. İnsanlar neçə illərdir, alkoqol, etanol, və ya digər alkoqol tərkibli içkilər qəbul edirlər. Mədəniyyətlərin çoxunda alkoqol istifadə edilir və bəzilərində buna məhdudiyyətlər qoyulur. Həkimlər tərəfindən isə alkoqol istifadəsinin nəticələri, onun nə zaman problem halına gəlməsi və xəstəliyə yəni alkoqolizmi yaratdığını qeyd edilmişdir (1, s. 926).

Alkoqolizmin klinik göstəriciləri olduqca fərqlidir. Alkoqolun bir çox orqan üzərində toksik təsiri vardır. İnsanlarda əsasən serroz, pankreatit, depressiya, insomnia kimi xəstəliklərlə müraciət halları daha çox özünü göstərir.

Alkoqolun davamlı istifadəsində son 12 aylıq müddət ərzində 3-nün görsənməsi lazımdır:

-Eyni təsiri əldə etməkdən ötrü qəbuledilən miqdarın artırılması;

-Eyni miqdarda alkoqol istifadəsində eyni effekti almaq olmur;

-Nəzərdə tutulandan daha çox alkoqol qəbul edilir;

-Alkoqol qəbul etməkdən ötrü çox əmək və vaxt sərf edilir;

-Sağlamlıq problemləri olmasına rəğmən yenə də alkoqol qəbul edilməsi; -Alkoqol qəbulu ilə əlaqəli sosial, iş və ailə ilə münasibətlərində davamsızlığın olması.

Alkoqolun neqativ istifadəsini müəyyən edən müəyyən edən əlamətlər:

- Qidalanma pozuntuları;
- Dispepsiya;
- İntihar cəhdləri.

Alkoqolun asılılıq yaratdığı hallar zamanı aşağıdakı əlamətlər özünü göstərir:

-İçkinin qəbul olunması üçün güclü bir istək, eyni zamanda yaranan davranış problemləri;

-İçkinin qəbul olunmadığı tədqirdə gərginlik və aqressivlik hissləri;

-İçkinin qəbulundan sonra rahatlanma halları;

-Vaxtının çox hissəsini buna sərf etmək, içkiyə qarşı daimi tələbat;

-İstifadə edilən içkiyə qarşı sonralar tolerantlıq yaratmaq.

Alkoqolun istifadəsində, onun az və yaxud çox qəbul edilməsində, ona qarşı tolerantlıq göstərilməsində bəzi tədqiqatlar genetik faktorların rolu olduğunu qeyd edirlər. Nümunə üçün, əgər bir uşağın yaxın ətrafında, ailə üzvlərində alkoqol istifadəsi çox özünü göstərirsə, bu uşaqda digər həmyaşıdlarına görə alkoqolun istifadəsi daha tez və artıq miqdarda qəbulu müşahidə edilir. Bu uşaqların digər həmyaşıdlarına görə 4-10 dəfə daha çox alkoqol qəbul etdikləri müəyyən edilmişdir.

Rus pedaqoq A.C. Makarenko qeyd etmişdir ki, "Valideynlərin davranışı həlledici amildir". Valideynlər öz hərəkətləri ilə övladlarına onların düzgünmüş kimi qəbul edəcəkləri fikirləri aşılayırlar.

Yeniyetmələrin alkoqol qəbul etməsinin səbəblərindən biridə "Rol-modeli" ilə əlaqəlidir. Beləki bu yaş dövrü əsasən uşaqlar yetkin insanların rolunu mənimsəməyə çalışırlar. Kanadada "Uşaq və narkotik istifadəçiləri" adlı bir kitabda qeyd olunur ki, uşaqlar ən çox öz valideynlərindən təsirlənir. Yeniyetmələr əsasən valideynlərinin rolunu təqlid etməyə başlayır və həyatlarına onlara görə qurur. Yeniyetmələr valideynlərinin problemli situasiyanı necə həll etdiklərinə, öz fikirlərini necə ifadə etdiklərinə və s. bu kimi bütün hərəkətlərini müşahidə edirlər.

Ailə daxilində formalaşmış mədəni dəyərlər, həyat tərzi onların inkişafında mühüm rola malikdir. Artıq valideynlərinin belə bu kimi neqativ davranışı evdə nümayiş etdirildiyini görən yeniyetmə, özü də buna öyrəşir və alkoqol istifadəsini normal hal kimi qəbul edir.

Alkoqol istifadəsində sosial faktorların rolunu bu kimi səbəblərə görə daha artıqdır. Buraya yeniyetmənin daxil olduğu sosial şəbəkələr, oynadıqları oyunlar, baxdıqları verilişlər mühüm təsir göstərir.

Belə ki, müasir dövrdə internet istifadəsi nəticəsində yeniyetmələr daha çox məlumat əldə edirlər. Bunlar həm onlar üçün xeyirli və həmdə ziyanlı ola biləcək məlumatlardır. Müasir dövrdə media hər bir insanın həyatında mühüm rol oynamaqdadır. Orada reklam olunan yaxud nümayiş etdirilən içki səhnələri müxtəlif yaş kateqoriyasından olan insanlara, xüsusilə yeniyetmələrə daha çox təsir edir. Bunlara baxan yeniyetmələrin davranışlarında artıq içkiyə adi hal kimi baxılması və bunu aqressiv şəkildə yerinə yetirilməsi müşahidə edilir.

Yeniyetmələr tərəfindən alkoqol qəbul edilməsinin digər bir səbəbi isə onların sosial münasibətləri və əhval-ruhiyyələri ilə əlaqəlidir. Ümumi şəkildə götürüldükdə yeniyetmələrin emosional inkişafına təsir göstərən faktorlar aşağıdakılardır:

-Sosial mühit;

-Bu dövrə xas olan inkişaf xüsusiyyətləri;

-Fərdi keyfiyyətlər.

Alkoqol istifadəsi zamanı isə yuxarıda sadalanan faktorlar əsas rol oynayır. Yeniyetmənin real həyatdan uzaqlaşıb, alkoqol olan mühitdə özünü təsdiqləməsi baş verir. Öz çətinliklərini sanki bu yolla ört-basdır edirlər.

Artıq alkoqolun davamlı istifadə nəticəsində alkoqol asılılığının yaranmasına gətirib çıxarır. B. Segal qeyd edir ki, bundan qurtulmağa çalışan insanlarda "İstəsəm buraxaram. Bir dəfə də istifadə etsəm heç nə olmaz. Bu gündən istifadə etməyəcəyəm" kimi sözlərin həmişə təkrarı olur. Onlar özlərini bu sözlərlə müdafiə etməyə çalışırlar.

Bu sahədə aparılan müalicə işləri zamanı isə əsas profilaktik tədbirlər valideynlərlə verilən psixoloji məsləhətlərdir. Valideynlərin övladları ilə yetəri qədər məşğul olmamaları, onların davranışlarına nəzarət etməmələri, hər zaman onları mühakimə etmələri bu halı daha da şiddətləndirir. Əgər yeniyetmələrdə alkoqoldan istifadəsi addiktiv halı formalaşarsa, artıq onlarda məktəbdən yayınma, normal həyatdan uzaqlaşma, evi tez-tez tərk etmək kimi neqativ vəziyyətlərdə müşahidə olunur. Bu zaman istifadə oluna biləcək əsas effektiv terapiya üsulları koqnitiv-bihevioral və qrup terapiyalarıdır.

**Problemin aktuallığı:** Müasir dövrdə yeniyetmələr arasında alkoqol istifadəsi ən çox özünü göstərən haldır. Alkoqol istifadəsi zamanı yaranan dəyişikliklər nəticəsində onun mənfi nəticələrini təhsilə marağın azalması, özünə qapanıqlıq, sosial əlaqələri azalması kimi neqativ halların yaranması mövcud problemin həllini daha da artırır.

**Problemin yeniliyi:** Yeniyetmələrin problemli davranışlara meylliliyi yaranan məsələlərin həllində xarici təcrübənin öyrənilməsi, bu istiqamətdə aparıla işlərin daha effektivliyində mühüm rola malikdir.

**Problemin praktik əhəmiyyəti:** Yeniyetmələrin davranışlarının detallı şəkildə öyrənilməsi gələcəkdə bu sahədə daha qabaqlayıcı tədbirlərin görülməsində, alkoqol asılılığının aradan qaldırılması istiqamətində daha səmərəli işlər görülməsi üçün əsas rola malik olacaqdır.

**Ədəbiyyat:**


1. Marschall S.Runge, M.Andrew Greganti. İç hastalıkları. İstanbul, Güneş tıbb kitab evleri, 2009.
2. Çankarlı A. Sorunlarıyla, çözümleriyle ergenlik çağı. İstanbul, Zafer yayınları, 2014
3. https://pubs.niaaa.nih.gov/publications/arh26-4/287-291.pdf


**E-mail:** elizadeh.shebnem@mail

**Rəyçilər:** *psix.ü.elm.dok., prof.* **E.İ. Şəfiyeva**
*psix.ü.fəls.dok., dos.* **A.F. Səməndərova**
**Redaksiyaya daxil olub:** 17.09.2021